# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96.

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az


"____"__________2015-ci il　　　　№________

## ƏMR № 84

**Bakı şəhəri**　　　　**10 aprel 2015-ci il**

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə təbliğat və maarifləndirmə işinin təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının aidiyyəti bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 19(4.4.4), 23(4.4.16) və 24(4.4.19)-cü bəndlərinə uyğun olaraq 2015-ci ilin sonunadək:

1.1. Narkomanlar, həmçinin İİV və digər viruslara yoluxanlar arasında tibbi-gigiyena, təbliğat və maarifləndirmə işinin gücləndirilməsi təşkil edilsin;

1.2. Təhsil müəssisələrində təhsil işçiləri, məktəblilər və tələbələr arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, törətdiyi sosial bəlalar, erkən müalicənin labüdlüyü, həmçinin narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı barədə təbliğat aparılması, o cümlədən bu barədə videofilmlərin nümayiş etdirilməsi üçün Bakı şəhərindəki 15 orta təhsil müəssisəsində şagird heyəti ilə həkim-mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin;

1.3. Narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı, bu sahədə görülən tədbirlər və onların nəticələri barədə əhalinin mütəmadi olaraq məlumatlandırılması təşkil edilsin.

2. Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planı təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın ki, təşkili və keçirilməsinə nəzarət edilməklə Əmrin 1-ci bəndində qeyd olunan hər bir görüş və mühazirə barədə mütəmadi olaraq məlumat verilsin.

5. Əmrin icrasına nəzarət direktorun müavini Rahib Məmmədova həvalə edilsin.

**Direktor**　　　　**Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 25.10.2013-cü il tarixli 118 nömrəli əmri ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının aşağıda qeyd olunan bəndlərinin icrası İSİM-ə həvalə edilmişdir:

- **19 (4.4.4)** Narkomanlar, həmçinin İİV və digər viruslara yoluxanlar arasında tibbi-gigiyena, təbliğat və maarifləndirmə işinin gücləndirilməsi
- **23. (4.4.16)** Təhsil müəssisələrində təhsil işçiləri, məktəblilər və tələbələr arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, törətdiyi sosial bəlalar, erkən müalicənin labüdlüyü, həmçinin narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı barədə təbliğat aparılması, o cümlədən bu barədə videofilmlərin nümayiş etdirilməsi
- **24. (4.4.19)** Narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı, bu sahədə görülən tədbirlər və onların nəticələri barədə əhalinin mütəmadi olaraq məlumatlandırılması

Qeyd olunan bəndlərin icrasını təmin etmək məqsədi ilə 2015-ci ilin sonunadək 15 məktəbdə maarifləndirmə mühazirələrinin aparılması nəzərdə tutulur.

Məktəblərin siyahısı və tədbirlərlə bağlı xidmətlər barədə cədvəl əlavə edilir (qoşma 1 vərəq).

Layihələrin əlaqələndirilməsi
şöbəsinin müdiri

Səbinə Babazadə
16.03.2015

| Cədvəl | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə |
| təlimçilər | Vəfa Ağayeva<br>Xanım Eyvazova<br>Rüfət Rəhimov |
| dizayner | Ramiz Qəmbərov |
| administrativ xərclər | |
| Nəqliyyat xərcləri | |
| fotoxidmət | 1 nəfər |

| № | Məktəb, lisey, universitet | Təlimçilərin adı/<br>Əhatə edilən dövr |
|---|---|---|
| 1. | 176 saylı tam orta məktəb | Vəfa Ağayeva<br>Xanım Eyvazova<br><br>Mart-may aylarında |
| 2. | M.İbrahimov adına 153 saylı tam orta məktəb | |
| 3. | M.Müşfiq adına 18 saylı tam orta məktəb | |
| 4. | 1 saylı İnternat | |
| 5. | C.Cabbarlı adına 161 saylı tam orta məktəb | |
| 6. | H.Aslanov adına 175 saylı tam orta məktəb | |
| 7. | N.Tusi adına 173 saylı tam orta məktəb | |
| 8. | 38 saylı orta məktəb | |
| 9. | S.Axundov adına 172 saylı tam orta məktəb | Sentyabr-dekabr aylarında |
| 10. | Ş.Əfəndizadə adına 13 saylı tam orta məktəb | |
| 11. | M.Cuvarlinski adına 52 saylı tam orta məktəb | |
| 12. | 158 saylı orta məktəb | |
| 13. | M.Müşfiq adına 18 saylı tam orta məktəb | |
| 14. | İ.İbrahimov adına 167 saylı tam orta məktəb | |
| 15. | A.Ağaverdiyev adına 31 saylı tam orta məktəb | |